# Şöhrət Əfşarın poema-trilogiyası



■ **Qurban Bayramov,**
ədəbiyyatşünas-tənqidçi

Trilogiya klassik ədəbiyyatdan üzübəri gələn ədəbiyyatşünaslıq terminidir. Trilogiya ”Ədəbiyyatşünaslıq terminləri lüğəti”ndə belə şərh edilmişdir: ”dramaturji, yaxud təhkiyə janrında yazılıb, vahid müəllif qayəsi ilə bir-birinə bağlı olan üç ədəbi əsər. Məsələn, Bomarjenin ”Sevilya bərbəri”, ”Fiqaronun evlənməsi”, ”Cinayətkar ana” trilogiyası.

Trilogiya: (yun.) Bir müəllifin ideya ümumiliyi və mövzu ardıcıllığı, süjeti, kompozisiyası ilə birləşən üç müstəqil ədəbi, kino və ya musiqi əsəri.

Silsilə təşkil edən iki hissəli roman dilogiya, silsilə təşkil edən üç hissəli roman trilogiya, dörd hissəli tetralogiya (kvadrologiya), beş hissəli pentalogiya və s. adlanır. Sonuncular əsasən musiqi əsərlərinə və müasir seriallara aid edilir. Bədii ədəbiyyatda ən çox dilogiya və trilogiya mövcuddur. Azərbaycan nəsrində, məsələn, M.Hüseynin ”Abşeron”, ”Qara daşlar” romanları birlikdə dilogiyadır. M.S.Ordubadinin ”Gizli Bakı”, ”Döyüşən şəhər” və ”Dünya dəyişir”, Əzizə Cəfərzadənin ”Eldən-elə”, ”Aləmdə səsim var mənim” və ”Vətənə qayıt” romanları isə trilogiyadır.

Dilogiya və trilogiyada hər hissə müstəqil roman sayılır və hər birinin də, bir qayda olaraq, öz müstəqil adı olur. Sadəcə, bu müstəqil romanları az-çox eyni mövzu və eyni obrazlar birləşdirir. Bu janrların tarixi qədimdir və antik ədəbiyyata (bizim eradan əvvəl IV-V əsrlərə) gedib çıxır. İlk dəfə Yunanıstanda dramaturgiya janrında yazılan silsilə pyeslərə tətbiq edilibdir. Esxilin, Sofoklun əsərləri buna misaldır. Yeni dövr ədəbiyyatında F.Şillerin (”Vallenşteyn”), R.Vaqnerin (”Nibelunqlar”), A.K.Tolstoyun (”İvan Qroznunun ölümü”, ”Çar Fyodr İannoviç”, ”Boris Qodunov”) pyesləri, Dümanın (”Üç muşketyor”, ”İyirmi il sonra”, ”Vikont de Brajelon”), Emil Zolyanın (”Lurd” , ”Rim”, ”Parij”), L.N.Tolstoyun, M.Qorkinin memuarları bu sıradan olan dəyərli nümunələrdir.



Höte (”Trilogie der Leidenschaft”), Heyne (”Trilogiye”) kimi dahilər buna cəhd etsələr də poeziyada bu termin demək olar ki, tətbiq edilməyibdir. Hətta M.Y.Lermontov da trilogiya yaratmaq niyyətində olmuşdur.

İndiki mərhələdə ”trilogiya” adı altında təqdim edilən, lakin özünü doğrultmayan bir neçə fakta rast gəlmək olur. Məsələn, müasir rus poeziyasında İqor İverin ”İronik məhəbbət trilogiyası” 15 bəndlik, üç hissəyə ayrılmış şeir parçalarını, Anotoli Verşinskinin özünün də qeyri-ciddi hesab elədiyi üç hissəli elmi-mistik serial adlandırdığı ”Ehtirasların trilogiyası” mənzuməsi hələlikdə bizim bildiyimiz faktlardandır.

Bütün bunların üzərində ona görə belə ətraflı dayandıq ki, poeziya tarixində trilogiya standartına, modelinə tam uyğun gələn ilk nümunələrin məhz Azərbaycan ədəbiyyatında yaranması faktının mahiyyətinə varaq.

Görkəmli, cəsarətli, olduqca istedadlı şairimiz Famil Mehdi bu janrda ilk dəfə ”Raykom katibi”, ”Günəş həmişə səmadadır”, ”Gəlimli-gedimli dünya” poemalarını qələmə alaraq hər üç poemanı ”Göyü çiynində saxlayan adam” poema-trilogiya adı altında ”Ömür keçir, gün keçir” kitabında nəşr etdirmiş, ədəbi mühit tərəfindən olduqca maraqla qarşılanmış, ədəbi-tənqiddə yüksək qiymətini almışdır. Sonralar bu poema-trilogiya Famil Mehdinin ”Seçilmiş əsərləri” kitabında da nəşr edilmiş, rus dilinə çevrilərək Moskvada böyük tirajla yayılmışdır.

Böyük şairimiz Famil Mehdidən sonra ilk dəfə bu formata - poema-trilogiya formatına tanınmış şair-publisist Şöhrət Əfşar müraciət etmişdir.

Şöhrət Əfşarın ayrı-ayrılıqda qələmə alıb mətbuatda və kitab halında çap etdirdiyi ”Həyat sən öyrədən deyil, müəllim” ”Bu dünyanın havasına oynama” və ”Bu dünya düzəlməz, düzəlməz, baba!” lirik-epik poemalarını oxuduqdan sonra bu fakt, doğrusu məni sevindirdi və belə qərara gəldik ki, vahid süjet, ideya, kompozisiya, poetik-estetik qayə etibarı ilə birləşən, bütövləşən və biri digərinin davamı olan bu poemaları ”Poema-trilogiya” formatında oxuculara təqdim eləyək. Hər üç poemada aparıcı lirik qəhrəman müəllifin özüdür. Poemaları birləşdirən cəhətlərdən biri də, müəllifin yüksək vətəndaşlıq, vətənpərvərlik və dövlətçilik mövqeyidir, millətsevərlik, yurdsevərlik qayəsidir.

Azərbaycanımızın müstəqilliyə qovuşmaq prosesində - keçid mərhələsində ictimai-siyasi mühitdə baş vermiş kataklizmlər, mənəvi-əxlaqi aşınmalar, erroziyalar, intiqrasiya adı altında yad mühitdən gələn özgə ”havalar”, milli-mənəvi, əxlaqi ənənələrimizə dəyən zərbələr bu oxunaqlı, poetik cəhətdən mükəmməl lirik poemaların başlıca mövzularıdır. Bu poema-trilogiyada klassik ədəbi ənənələrimizdən qaynaqlanan irfani dəyərlər örnək götürülərək müasir mühitimizə transformasiya edilmiş, yeniləşən sosial-pisxoloji yanğıya, mənəvi-əxlaqi ağrıya çevrilmişdir.

Bütün bunlarla yanaşı, bir daha qeyd edirik və o qənaətdəyik ki, şair Şöhrət Əfşar Azərbaycan poeziya tarixində ( eləcə də dünya poeziya tarixində) ikinci dəfə olaraq bütün ədəbi-nəzəri tələblərə cavab verən ”poema-trilogiya” janrında, formatında ədəbi-poetik nümunə yaratmağa nail olmuşdur və bu fəxredici, təqdir olunası ədəbi-poetik hadisədir...

*10.09.2015.*